# Ulu Öndərin ideyaları xalqımızı xoşbəxt gələcəyə aparır



*Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildi. Həmin tarixdən etibarən respublikada bütün sahələrdə - sənaye, kənd təsərrüfatı, təhsil, elm, mədəniyyət və memarlıqda ciddi islahatlara başlanıldı. Azərbaycan ittifaq daxilində mühüm mövqeyə yüksəldi, sosial-iqtisadi inkişaf tempi sürətləndi.*

Bu tarixi gün sonradan Azərbaycan dövlətçiliyinin bərpası və möhkəmləndirilməsi yolunda atılmış ilk ciddi addım kimi dəyərləndirildi. **Tanınmış şair, publisist, pedaqoq, tərcüməçi, Şəki Ağsaqqallar Şurasının sədri Vaqif Aslan** bildirdi ki, respublikamızın bütün bölgələri kimi, Şəki də qısa vaxt ərzində sürətlə inkişaf etməyə başladı. Şəki İpək Kombinatı yenidən quruldu və modernləşdirildiyindən SSRİ miqyasında tanınan istehsal mərkəzinə çevrildi. Tütünçülük, üzümçülük, ipəkçilik, pambıqçılıq sahələrinə xüsusi diqqət göstərildi. Şəki Dövlət Dram Teatrı və Tarix-Diyarşünaslıq Muzeyi geniş fəaliyyət göstərməyə başladı. Tarixi abidələrin bərpası həyata keçirildi, Şəki Xan Sarayı, Karvansara, qala divarları və digər tarixi obyektlər təmir olundu.

Həmsöhbətim vurğuladı ki, ulu öndər 1974-cü il iyulun 5-də Şəki şəhərinə səfər edərək burada ümumrespublika müşavirəsi keçirdi. Bu səfər Şəkinin sosial-iqtisadi inkişafında mühüm dönüş nöqtəsi oldu. Dövlət başçısının göstərişi ilə rayonda bir sıra mühüm layihələr həyata keçirildi. Sel sularından mühafizə məqsədilə bəndlərin tikintisinə başlanıldı, Kiş çayı üzərində nəhəng körpü və Əyriçay su anbarı inşa edildi. Bundan əlavə, 1975-ci ildə şəhərin bütün ipək müəssisələrini birləşdirən Şəki İpək İstehsalat Birliyi yaradıldı. Müəssisədə 7 min nəfərə yaxın daimi işçi çalışmış və məhsulları həm SSRİ-nin müxtəlif müəssisələrinə, həm də Yaponiya, İsveçrə, İtaliya kimi xarici ölkələrə ixrac olunurdu.

1969-cu ildə respublikada 299,4 min ton pambıq istehsal olunmuşdursa, 1981-ci ildə bu rəqəm 1.015,3 min tona çatmışdı. Hər hektardan məhsuldarlıq 15,1 sentnerdən 35,9 sentnerə yüksəlmişdir. Üzüm istehsalı 272,0 min tondan 1.815,6 min tona qədər artmışdır. Məhsuldarlıq isə iki dəfədən çox yüksəlmişdi. Taxıl istehsalı 573,9 min tondan 1.211,3 min tona çatmışdır. Heyvandarlıq məhsulları istehsalı da bir neçə dəfə artmışdır. Bununla yanaşı, mədəniyyətin inkişafı üçün də çoxsaylı tədbirlər həyata keçirir, qələm sahiblərinə diqqət və qayğı durmadan artırıldı.

1981-ci ilin oktyabr ayında Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev Mingəçevirə səfəri zamanı Azərbaycan Dövlət Rayon Elektrik Stansiyasının tikintisində çalışan işçilərlə görüşərək onların fəaliyyətini yüksək qiymətləndirməklə növbəti hədəfləri müəyyənləşdirdi. Şəkidə görülən işlərlə də maraqlandı.

9 noyabr 2002-ci ildə Prezident Heydər Əliyev Şəki Olimpiya İdman Kompleksinin açılış mərasimindən sonra "Şəki-İpək" Açıq Tipli Səhmdar Cəmiyyətinə baş çəkdi. Müəssisənin əməkdaşları dövlət başçısını səmimi qarşılamaqla ipəkçilik sənayesinin inkişafına verdiyi dəstəyə görə minnətdarlıqlarını ifadə etdilər. Hər dəfə olduğu kimi, ümummilli liderin bu səfəri də Şəki şəhərinin sosial-iqtisadi və mədəni inkişafına böyük töhfələr verdi.

Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə qazanılan bütün uğurların canlı şahidi olan Vaqif müəllim Ağsaqqallar Şurasının sədri kimi keçirdiyi bütün görüşlərdə bu barədə ətraflı danışır. Deyir ki, xalqımızın bütün faciələrdən xilası və ölkəmizin dirçəlişi dahi şəxsiyyətin adı ilə bağlıdır. Gənclərin ölkə rəhbərliyinə və dövlət siyasətinə bağlılığı üçün biz ağsaqqalların üzərinə mühüm vəzifələr düşür. Bu səbəbdən də ağsaqqallarla bu barədə ətraflı fikir mübadilələri aparır və gələcəyimizin ulu öndərin müdrik siyasətinə uyğun olaraq daha parlaq olmasına çalışırıq. Ümummilli lider Heydər Əliyevin 14 iyul 1969-cu ildə təməlini qoyduğu inkişaf Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

**Mikayıl NƏRİMANOĞLU,**
**"Respublika".**

Respublika .- 2025.- 13 iyul (№ 142).- S.9.